**UOT (UDK) 3.37**

# ŞUŞALI QASIM BƏY ZAKİR YARADICILIĞINDA ƏXLAQİ-TƏRBİYƏVİ KEYFİYYƏTLƏRİN TƏHLİLİ

***Məmmədova Vəfa Oktay qızı***
***Gəncə Dövlət Universiteti***
***Vafa19731213@gmail.com***

**Xülasə:***Məqalədə Qasım bəy Zakir oxucunun fikrinə, düşüncəsinə hakim olan, onu düşündürən, real həyat hadisələrini necə varsa eləcə də əks etdirmişdir. Xalq yaradıcılığı çeşməsindən su içmiş qoşma, gəraylı, müxəmməs, mənzum hekayə, təmsil və satirik şeirlərində uşaq və yeniyetmələrin tərbiyəsi ön plana çəkilir. İnsan xarakterində olan mənfi cəhətlərə qarşı mübarizə aparmaq tələb olunaraq yeniyetmələrdə yüksək mənəvi keyfiyyətlərin, bəşəri məzmun kəsb eyləyən dəyərlərin tərbiyə olunması məsləhət bilinir.*

**Açar sözlər:** Şuşa, xan, xalq, şair, satira, vətən, ədəbiyyat, məhəbbət, qəhrəman, qala
**Ключевые слова:** Шуша, хан, народ, поет, сатира, родина, литература, любовь, герой, пишера
**Key words:** Shusha, khan, people, poet, satire, homeland, literature, affection, hero, castle

*...Vallah, göz sevinir baxırsan hara,*
*Öz yaşıl səsiylə çağırır çəmən.*
*Şuşa ucalmısan boz buludlara,*
*Vətən torpağının heykəlisən sən...*
*(Qasım bəy Zakir)*

**Şuşa-**Azərbaycan Respublikasının Qarabağ bölgəsində yerləşən dilbər guşələrdən biridir. Şuşa vaxtilə Azərbaycanın mədəniyyət paytaxtı olub. 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulmuş bu şəhərin yaranmasından 270 il ötür. Şuşa sevgisi hər bir azərbaycanlının:- o cümlədən də mənim mənəvi varlığımın ayrılmaz bir parçasıdır. Bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan bu şəhər yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazmışdır.

Strateji yüksəkliyi və mövqeyi ilə fərqlənən Şuşa respublikamıza qarşı hərbi təcavüzə başlamış Ermənistanın silahlı qüvvələri tərəfindən 1992-ci il mayın 8-də işğala məruz qalmışdır. İşğal edilmiş dövrlərdə şəhərdəki yüzlərlə qiymətli tarixi və mədəniyyət yadigarları ermənilərin vandalizm aktları nəticəsində dağıdılaraq bərbad hala gətirilmişdir. Haqq işi uğrunda ordumuzun Ali baş komandanı İlham Əliyevin rəhbərliyi altında apardığımız 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu Şuşa şəhərini 2020-ci il noyabrın 8-də işğaldan azad etdi. Ermənistanın kapitulyasiyasına yol açan Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrilərək, tariximizə Zəfər Günü kimi həkk olundu. Həmin vaxtdan Şuşada quruculuq işləri geniş vüsət almış, mədəniyyət xadimlərimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 5 yanvar 2022-ci il tarixli fərmanına əsasən bu ili Şuşanın Azərbaycan xalqı üçün tarixi əhəmiyyətini, yüksək mədəni-mənəvi dəyərini nəzərə almış və "Şuşa ili" elan etmişdir. [8]

Abbasqulu ağa Bakıxanov, İsmayıl bəy Qurtqaşınlı və Mirzə Fətəli Axundovun müasiri və yaxın dostu, satiraları və lirik şerləri ilə tanınan Qasım bəy Zakir...

Şuşada dünyaya göz açmış Qasım bəy Zakirin həyat və yaradıcılığına, eləcə də onun yazmış olduğu satiralarındakı yetişməkdə olan gənc nəslin tərbiyəvi-əxlaqi məsələlərinə nəzər salmağı qərara aldım. Qasım bəy Zakir 1784-cü ildə Qarabağ mahalının Şuşa şəhərində tanınmış bir bəy ailəsində anadan olmuşdur. XIX əsr azərbaycan ədəbiyyatında satirik cərəyanın yaranması onun adı ilə bağlıdır. Zakir Şuşada ruhani məktəbində farsca təhsil almış və fars dilini mükəmməl bildiyi üçün Firdovsi, Xəyyam, Xaqani, Nizami, Sədi, Cəlaləddin Rumi kimi böyük klassiklərin əsərləri ilə tanış ola bilmişdir. Azərbaycan klassiklərindən Füzuli və Vaqifin şerləri ilə daha dərindən tanış olmuş və öz yaradıcılığında bu şairlərdən daha çox istifadə etmişdir.

F.Köçərli öz atası Əhməd bəyin rəvayətinə əsasən Zakirin şəxsiyyəti haqqında bu sətirləri yazmışdır: "O, zati-şərif, xoşsurət və xoşsima, ağ bədənli, uca qamətli zəifül-büniyyə bir vücud imiş. Göyçək, ağıllı və göy rəngə mail gözləri var imiş. Simasından, hərəkət və sükənasından acari-nəcabət və rəşadət görünərmiş. Danışığı fəsih, sövti dilkəş olmağa görə çoxlarını özünə mail edərmiş və danışanda ona qulaq asmamaq olmazmış. İnsaf və mürvəttən xaric sözlər və işlər şairi təbii halından çıxarıb onu qeyz və hiddətinə səbəb olarmış. Amma acığı tez sönüb tövbə və istiğfar edərmiş. Adəti halında xoşxülq, həlim, rəhimli və mürüvvətli bir adam imiş" [3, səh.380-381]

*Səri-kuyin məhşər, qəddin qiyamət, Qiyamət edərsən səadətbəsəadət,*
*Hüsnün günəşindən çəkib xəcalət, Çərxin məhi, afitabı çəkildi.*
*Dün naz ilə qədəm basanda bağa, Şümşadü sənubər düşdü ayağa,*
*Süsən, sünbül, lalə, üz qoydu dağa, Bərki–külin rənkü abı çəkildi. [1, səh.33]*

Zakirin şerlərində təsvir olunan gözəllərin çoxu onun şəxsən gördüyü, tanıdığı Qarabağın gözəl qız və gəlinləridir. Şair bunları quru, cansız deyil, mənəvi keyfiyyətləri, ozünün onlara yüksək münasibəti, adət və ənənələri ilə birlikdə onların əxlaq və tərbiyəsinə də yüksək qiymət verərək təsvir edir. Onun gözəlləri "əhdi dürüst", "iqrarı möhkəm", "məkr" və hiylə bilməyən, həyalı, namuslu, məhəbbətində sədaqətli, hünərli və ağıllı insanlardır.

Uzun müddət elin içərisində yaşayan və öz yaradıcılığında xalq ədəbiyyatının tükənməz xəsinəsindən geniş istifadə edən şair xalqın ruhuna, onun milli xüsusiyyətlərinə, adət və ənənələrinə dərindən bələd idi. Ona görə də o qoşmalarında çox zaman gözəli öz milli xüsusiyyətləri, adət və ənənələri, yerli geyim və bəzəkləri ilə təsvir edirdi.

*Barmağında xatəm, belində kəmər, Telində güşvarə, düymə tamam zər,*
*Qərq olsun yaşıla, ala sərasər, Naz ilə sallana-sallana gəlsin. [1; səh.106]*

Zakirin qoşmalarının əksəriyyəti tərbiyəvi, əxlaqi, əməksevərlik, həqiqi məhəbbəti və aşiqin ruhunu tərənnüm edən şerlərdir. Zakir şeirlərinin ədalətli, xeyirxah, vətənpərvər düşüncəli, zirək, mübariz, əməksevər insanlar yetişdirmək motivləri ilə zəngin olmasına baxmayaraq, indiyə qədər pedaqoji fikir tariximizdə onun mövqeyi müəyyənləşdirilməmiş, əsərlərinin tərbiyəvi imkanları təhlil olunaraq araşdırılmamışdır. Şairin əsərləri əsrimizin 20-ci illərindən başlayaraq daha mükəmməl toplanıb nəşr olunmuş, ətraflı tədqiq edilib öyrənilmişdir. Q.Zakirin əsərləri təlim-tərbiyə məsələləri ilə bağlı qiymətli mülahizə və fikirlərlə zəngindir. O, təlim-tərbiyəyə aid ayrıca əsər yazmasa da, bədii irsində bu gün də əhəmiyyətini itirməyən mühüm nəzəri fikirlər irəli sürmüşdür. Zakirin əsərləri şəxsiyyətin formalaşmasında, böyüməkdə olan nəslin mənəvi cəhətdən zənginləşməsində müəyyən əhəmiyyətə malikdir. Belə ki, xalqın mənafeyi ilə yaşamaq elin sevincinə və kədərinə şərik olmaq, həyat həqiqətini, humanist idealları müdafiə etmək və yaymaq onun sənət idealı, həyat amalı olmuşdur. O, insanları, gəncləri iradəli, mübariz olmağa, el qeyrəti çəkməyə, xalqın adını şöhrətləndirməyə çağırır. Q.Zakir yaradıcılığındakı bəzi ziddiyyətlərə baxmayaraq, həmişə zəhmətkeş kütləyə yaxın olmuş, xalqın istək və arzularına şərik olaraq, onun həyat

tərzinin, mədəni səviyəsinin yüksəldilməsi naminə daim çalışmış, narahatlığını həmişə büruzə vermişdir. Gəncləri sədaqətli, mərd, mübariz, ağıllı şəxslər kimi görmək arzusu Zakir lirikasının, mənzum hekayələrinin, satirik şeirlərinin və təmsillərinin leytmotivini təşkil edir. Q.Zakir öz müasirlərinin tərbiyə haqqında fikirlərindən təsirlənərək tərbiyəni xalqın bəladan xilas olmasının istinadgahı saymışdır. Ona görə tərbiyənin məqsədi dövrün ədalətsizliyinə qarşı çıxan mərd, mübariz, əməksevər, yüksək mənəvi sifətləri özündə birləşdirən, dostluğa, yoldaşlığa sədaqətli, etibarlı insanlar tərbiyə etməkdən ibarətdir. Q.Zakirin əxlaqi sifətlərin formalaşmasında ictimai mühitin və irsiyyətin rolunu yüksək qiymətləndirməsi xüsusilə maraqlıdır. İnsanın tərbiyə olunmasında irsi imkanlara üstünlük verməsi, zamanın tələbi ilə əlaqədar olsa da, “zatı” xarabın məhəbbətinə, sədaqətinə də inanmaq olmaz, deyən şair tərbiyə və mühitin təsiri ilə belə şəxslərin yenidən tərbiyə olunmasının çətin olduğunu söyləyirdi:

*Kim ki, zövqi-eşqi eylər inkar,*
*Sən bil ki, zatında onun şübhə var."*

1888-ci ildə Tiflisdə nəşr olunan “Vətən dili” dərsliyində Zakirin “Aslan, Qurd və Çaqqal”, “Tülkü və Qurd” təmsilləri, “Dərviş və fəqir” mənzum hekayəsi nəşr olunmuşdur. [1, səh.87] Qasım bəy Zakir Əxlaq tərbiyəsi haqqında da müxtəlif əsərlərində geniş fikirləri ilə diqqət çəkmişdir. Q.Zakir Azərbaycanda feodal münasibətlərini və ona uyğun əxlaqı kəskin tənqid etmiş, insanlarda bəşəri dəyərlər əsasında yaranmalı olan əxlaqi-mənəvi və əqli yetkinliyi, ruhi kamilliyi tərənnüm etmişdir. Onun fikrincə, əxlaq tərbiyəsi şəxsiyyətin bütün fəaliyyətinə nüfuz edərək onun dünyaya və adamlara münasibətində təzahür edir. Etibarlı olmayan dünyada “dərdbilməzlər”lə əhatə olunan, “dərd ilə doludur döşüm”-deyən şair “çərxin sitəmindən, dövrün zülmündən” çıxış yolu axtarır. Dostluq, inam, etibarı olmayan dünyanın acı taleyini qamçılayır. Nəcib keyfiyyətlərdən, gözəl insani sifətlərdən uzaq olanları tənqid edərək mədəni tərəqqi uğrunda mübarizə aparır, Vətən balalarının yüksək əxlaqi keyfiyyətlər ruhunda tərbiyə edilməsini bu mübarizənin mühüm tərkib hissəsi sayır. Bu da humanist şeirin uşaqlara Vətənin, xalqın gələcəyi üçün istinadgah nöqtəsi, ümid çırağı kimi baxmasından irəli gəlirdi. Buna görə də insan adını, onun ləyaqətini yüksək tutan həssas qəlbli şair lap kiçik yaşlarından uşaqların tərbiyəsi ilə məşğul olmağı və onlardan yüksək mənəviyyatlı, əxlaqlı şəxslər yetişdirmək kimi çətin bir işi təxirəsalınmaz bir məsələ kimi irəli sürürdü. Bu işin çətinliyi, hər şeydən əvvəl, qeyri-normal ictimai mühit ilə əlaqədar idi. Şairin yaşadığı mühit istər-istəməz bu işə mane olur, ya da öz mənfi təsirini göstərirdi. Buna görə də satirik şair köhnə cəmiyyətdəki rəzalətləri, mənəvi yoxsulluğu, əxlaqi pozğunluğu feodal patriarxal əxlaqının təzahürlərini, meşşan psixologiyasını, laqeydlik, mərhəmətsizlik, oğurluq, rüşvətxorluq kimi mənfi halları, nöqsan və eybəcərlikləri kəskin tənqid edir [4; səh.336]. Dövrün çatışmazlıqlarının tənqidi Zakirin həm sələflərinin, həm də müasirlərinin yaradıcılıqlarında qabarıq surətdə özünü göstərir. Onların feodal adət-ənənələrinə, geriliyə, milli zülm va sosial ədalətsizliyə, əhalinin hüquqsuzluq və savadsızlığına qarşı çıxışları xalqımızın azadlıq və istiqlaliyyət arzuları ilə qovuşur. “Gözüm yolda qaldı, könlüm intizar”, “Dost yolu bağlandı, ümid kəsildi”, “Dərdbilməzlər qınar məni, heç deməz”, “Qadir allah səbəb sala araya”, “Dost yolunda cəfa çəkdim, can üzdüm”, “Nə müddətdir dost yolları kəsildi” misraları ilə başlanan şeirlərində yüksək əxlaqi hisslər, vəfa, sədaqət, fədakarlıq kimi nəcib sifətlər aşılanır. Dövrün amansızlığı, “qana susaması”, “taleyin ədavəti” kəskin tənqid olunur. Ürək ağrısı ilə bildirilir ki, zəmanənin amansızlığı, ədalətsizlik, zülm və iztirab, insanların əxlaqına, mənəviyyatına pis təsir göstərir, onu pozur.Yaşadığı zəmanədə əmin-amanlığın, səmimiyyətin, yoldaşlığın, dostluğun olmaması, insanın insani səviyyədə yaşamaması, uşaqların tərbiyəsi üçün heç bir imkanın olmaması göstərilir. Buna görə də Zakir səksəkəli, qorxulu, sağlam olmayan ictimai həyatı, onun məhsulu olan, öz hərəkət və

davranışı ilə uşaq və yeniyetmələrin tərbiyəsinə pis təsir edən, əməyə xor baxan, tüfeyliləri, çar məmurlarını, bəyləri və ruhaniləri satiralarının tənqid atəşinə məruz qoyur. [1; səh.341]Oğurluq və quldurluğun hökm sürdüyü bir ölkədə xalqın nifrətinə layiq "gədə-güdələr"in ağalıq etdiyi bir dövrdə paxıllıq, iftira yaxmaq, "həddi aşıb" yoldaşlıq, dostluq münasibətlərində saxtakarlıqla, xəyanətlə, alıb-aldatmaqla məşğul olan "əqli seyrəklər" meydan sulayır, düz sözə, saf əxlaqa məhəl qoymur. Pul hər şeyi həll edir, əxlaqi naqislər min cür oyundan çıxsalar da, "yüz adam öldürsələr də onlara haqq qazandırırlar. İkiüzlülər, yaltaqlar, oğrular, gecə-gündüz sərxoşluqla gün keçirən, fitnəkar bəylərlə birləşib, ölkəni xaraba qoyur, əxlaqi davranışları ilə yetişən nəslə mənfi nümunə göstərir.Namussuz, qeyrətsiz şəxslərdən hər cür çirkin hərəkətlər gözləmək olar. Hətta onlar Vətənini, xalqını atar, ona xəyanətkarlıq da edərlər. Belələrinə Q.Zakir yerli xan, bəy, mülkədar və mollaları misal göstərərək onlara məxsus əxlaqı qamçılayır. Çünki bəy və xanlar, mülkədarlar xalq kütləsi ilə "insaf və mərifətdən" kənar rəftar edir, müftəxor, mənasız həyat sürməklə, öz zövqünə görə yaşayır, şəxsi hissləri, mənfəəti naminə zəhmətkeş xalqa divan tutur. Din pərdəsi altında onlar hər cür əxlaqsızlıqlar edir, qeyri-insani hərəkətləri ilə xalqın mənəviyyatını pozurlar. Deyilənlərdən belə nəticəyə gəlmək olur ki, Zakirə görə hər cür mənəvi çirkinliklərin törədicisi mühitdir. Q.Zakirin bu fikri insanı ictimai mühitin məhsulu hesab edən Avropa maarifçilərinin fikirləri ilə səsləşir. Eybəcər ehtiraslann mənbəyi olan mühit hər şeyi, insanlığı da, nəcabəti də, əqli, əxlaqı da məhv edir, humanist hissləri öldürür, yoldaşlığa, dostluğa məhəl qoymur, pul, var, dövlət hərisliyi insanları insani sifətdən çıxarıb vəhşiyə döndərir. Buna görə də Zakir ictimai həyatdakı neqativ halları, hər cür əxlaqsızlıqları tənqid, nəsihət və tərbiyə yolu ilə aradan qaldırmağa cəhd etmişdir. Bununla da Zakir pis əməllərə malik insanların daxili mərəzlərini açmaqla, oxucuda iyrənc sifətlərə nifrət hissi aşılamağa çalışmışdır. Çünki mənfi əxlaqi hərəkətlərə nifrət edən hər bir gənc bu sifətlərdən uzaqlaşır, nifrət edə-edə onda müsbət əxlaqi keyfiyyətlər formalaşır.

Q.Zakirin uşaqlar üçün yazdığı təmsillər də əxlaq tərbiyəsi üçün xüsusi əhəmiyyət kəsb edir. O, təmsillərində Azərbaycan ictimai həyatının eybəcərliklərini tənqid edir, haqsızlığa, zülmə və əsarətə qarşı çıxır, feodal əxlaq normalarını ifşa edir. Onun mənzum hekayələri, "Dəvə və eşşək", "Qurd, çaqqal və şir", "Tülkü və şir", "İlan, dəvə, tısbağa", "Tülkü və qurd", "Tısbağa, qarğa, kəsəyən, ahu" kimi təmsilləri də nəcib mənəvi sifətlərin formalaşdırılması üçün geniş imkanlara malikdir. Q.Zakir feodal əxlaqını tənqid etməklə yanaşı, gənc nəslə aşılanacaq müsbət əxlaqi keyfiyyətləri də göstərmişdir.

Həsən bəy Vəzirov:-Firudin bəy Köçərli Qasım bəy Zakirin əsərlərini "məişətimizin güzgüsü" adlandırdığını söyləmişdır.[4, səh. 220]

Qasım bəy Zakir 1857-ci ildə Şuşada vəfat etmiş və Mirzə Həsən qəbristanlığında dəfn olunmuşdur.

### *Ədəbiyyat*


1. Qasım bəy Zakir. Əsərləri. Bakı: Elm, 1964
2. Çernyayevski və Vəlibəyov. Vətən dili dərsliyi. Tiflis, 1988-ci il
3. Firuddin bəy Köçərli Azərbaycan ədəbiyyatı tarixi materialları I cild, II hissə.
4. Pedaqoji irsimizdən: M. V.Vidadi, M.P.Vaqif, Q.B.Zakir
5. İnternet resursları.
6. President.az

**АНАЛИЗ ТВОРЧЕСТВО О НРАВСТВЕННОМ ВОСПИТАНИИ В ПРОИЗВЕДЕНИИ КАСУМ БЕКА ЗАКИРА ШУШИНСКОГО**

***Маммадова Вафа Огтай кызы***

***Резюме***

В статье Касым бек Закир отразил события реальной жизни, которые владеют над мыслями читателя и заставляют его задуматься. Воспитание детей и подростков выдвигается на первый план в гошме, гарайли, мухаммасе, стихотворных рассказах, притчах и сатирических поэмах, испивших воду из родника народного творчества. Предлагая бороться с негативными сторонами человеческой натуры, рекомендуется обучение подростков высоким нравственным качествам и ценностям.

**ANALYSİS OF THE DİSCUSSİON ON MORAL EDUCATİON İN THE WORK OF QASİM BEY ZAKİR SHUSHİNSKY**

***Mammadova Vafa Oqtay***

***Summary***

İn the article, Kasym bey Zakir reflected the events of real life that control the reader's thoughts and make him think. The upbringing of children and adolescents comes to the fore in goshma, garaili, mukhammas, poetic stories, parables and satirical poems that have drunk water from the spring of folk art. Dealing with the negative aspects of human nature, it is recommended to teach teenagers high moral qualities and values.

***Rəyçi:p.ü.f.d. Nəsibova Saidə Nazim qızı***
***Təhsilin pedaqogikası və metodikası kafedrasının 16 noyabr 2022-ci il tarixli iclasın 04 saylı protokolu***
***Daxil olduğu tarix 29 noyabr 2022-ci il***